# Nizami Gəncəviyə həsr olunmuş tamaşa Özbəkistan səhnəsində

**Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru İftixar Piriyevin dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığını təcəssüm etdirən "Könüllər mülkünün Sultanı - Şeyx Nizami Gəncəvi" tarixi Səmərqənddə tamaşaya qoyulub.**

AZƏRTAC xəbər verir ki, tamaşanın səhnə tərtibatçısı teatrın baş rəssamı Bəhram Safoyev, baletmeysteri Mədinəxan Erqaşeva, rejissor assistenti Anabibi Mardiyevadır.



Tamaşada, əsasən, Azərbaycanın görkəmli bəstəkarları Qara Qarayevin və Müslüm Maqomayevin musiqi əsərlərindən istifadə olunub.

Şeyx Nizami Gəncəvinin obrazını Özbəkistanın Əməkdar artisti Baxtiyar Rahimov canlandırır. Ümumilikdə səhnə əsərində 35 nəfərlik bir heyət iştirak edir. Martın 8-də Kattakurqan Şəhər Dram Teatrının səhnəsində keçirilən daxili baxışda müəllif və teatrın bədii şura üzvləri iştirak ediblər.

Nizami Gəncəvi dühasını təcəssüm etdirən bu maraqlı səhnə əsərinin özbək tamaşaçıları üçün böyük töhfə olduğunu dilə gətirən mütəxəssislər müəllifə və yaradıcı heyətə minnətdarlıq bildirib, bu uğurlu sənət nümunəsi üçün onları təbrik ediblər.

Tamaşanın premyerasının martın 11-12-də keçiriləcəyi gözlənilir. Səhnə əsərinin Özbəkistanın paytaxtı Daşkənd şəhərində də nümayişi nəzərdə tutulur.

---

Azərbaycan. - 2023.- 10 mart.- S.16.